

## *Könül ARİF*

### CIRIQ CİB

Ağrılarını da unutdunsa
Darıxanda
Xatırlayacaq heç nə qalmır geriyə

Cırıq cibə salınan əlin
Boşluğa düşməsi kimidir
Xatırlamaq cəhdlərin

Belə baxanda
Qiymətli nəyi vardısa
Töküb itirən cırıq cibdir keçmişin

***2019***

### YARPAQ KÖLGƏSİ

Üzümü geriyə çevirib baxanda
İynəyarpağının çiynimdəki
Bulanıq kölgəsi kimi
Aydın görə bilmirəmsə yaxın keçmişi

De
Kim səni mənim kimi
Gözəl unuda bilərdi?

***2019***

## GÜLHANƏ PARKI

İki dost şeir oxuyurdu Gülhanə Parkında
Nazim Hikmətdən tam dörd ağac aşağıda.
Şair idilər!
Keçid alınca şeirin misraları
Gözlərində halqalanırdı sulu kədər!
Gözləri (!)
Ələ verirdi onları...

Sözlərindən ucaydı
Ürəklərinin səsi –
Əllərindəki vərəqin titrəyişindəydi
Ürək döyüntüləri:
Dəqiqədə, bəlkə də, yüz iyirmi!

Necə bənd-bənd
Necə ürəklə oxuyurdular onlar bir şeiri –
Bir fıstıqlı lokumu
Uşaqlar bölüb həzlə –
Gözlərini yumaraq yedikləri kimi
Oxuyurdu iki dost bir şeiri...

***İstanbul, Eylül 2017***